# Yaşıl taksonomiyanın hazırlanması üzrə Dünya Bankının dəstək imkanları müzakirə olunub

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AMB-dan AZƏRTAC-a bildirilib ki, görüş zamanı DB-nin 2025-2029-cu illəri əhatə edəcək Azərbaycan üzrə yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədinin mühüm istiqamətləri, davam edən investisiya layihələrinin cari statusu, eləcə də Dünya Bankı tərəfindən COP29 çərçivəsində göstərilə biləcək dəstəklə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin qurumlar arasında mövcud əlaqələrin daha da genişləndirilməsi perspektivləri və yaşıl taksonomiyanın hazırlanması üzrə DB-nin dəstək imkanları müzakirə olunub.

**AZƏRTAC**
**2024, 17 sentyabr**